# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri”nin təsdiq edilməsi barədə**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 454 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş hədlərdə nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsini 6 ay müddətində təmin etsinlər.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş hədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət satınalmalarının vahid internet portalına və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət satınalmalarının vahid internet portalı haqqında” Əsasnamənin 5.1-ci bəndinə uyğun olaraq real vaxt rejimində satınalan təşkilata və dövlət satınalmalarının vahid internet portalının operatoruna ötürülməsi üçün zəruri tədbirlər görsün.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 29 yanvar 2022-ci il

№ 38

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 yanvar tarixli 38 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

# Elektron informasiya ehtiyatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri

| Sıra №-si | İnformasiya resursları dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan dövlət orqanlarının (qurumlarının) adı | Dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan məlumatlar |
|---|---|---|
| 1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1.1. hüquqi şəxsin adı;<br>1.2. hüquqi şəxsin ünvanı;<br>1.3. hüquqi şəxsin qanuni təmsilçisinin soyadı, adı, atasının adı və ünvanı;<br>1.4. fərdi sahibkarın soyadı, adı, atasının adı və ünvanı;<br>1.5. hüquqi şəxsin və ya fərdi sahibkarın VÖEN-i;<br>1.6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə məlumat;<br>1.7. vergi ödəyicisinin vergi uçotuna alınmış təsərrüfat obyektinin (subyektinin) ünvanı, təyinatı, sahəsi barədə məlumat; |

| | | |
|---|---|---|
| | | 1.8. vergi ödəyicisinin balansında (icarəsində) olan qurğunun adı, ünvanı, təyinatı;<br>1.9. vergi ödəyicisinin balansında (icarəsində) olan maşın-mexanizmlərin (nəqliyyat vasitələrinin) adı və təyinatı;<br>1.10. vergi ödəyicisinin balansında (icarəsində) olan avadanlıqların adı və təyinatı;<br>1.11. lisenziya (icazə) vermiş orqanın adı və ünvanı;<br>1.12. lisenziya (icazə) sahibi olan hüquqi şəxsin (xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin) adı, hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı, VÖEN-i;<br>1.13. lisenziyanın (icazənin) verildiyi tarix və qeydiyyat nömrəsi (icazə sənəd formasında verildikdə);<br>1.14. əgər vardırsa, lisenziyanın (icazənin) qüvvədəolma müddəti (başlama və başa çatma tarixləri göstərilməklə);<br>1.15. lisenziyada göstərilmiş fəaliyyət növü (icazədə göstərilmiş hərəkət);<br>1.16. lisenziyanın (icazənin) əlavəsinin verildiyi tarix və qeydiyyat nömrəsi (lisenziyanın (icazənin) əlavəsi verildikdə);<br>1.17. yenidən rəsmiləşdirilmiş lisenziyanın (icazənin) verildiyi tarix və qeydiyyat nömrəsi (lisenziya (icazə) yenidən rəsmiləşdirildikdə); |

| | | |
|---|---|---|
| | | 1.18. lisenziyanın (icazənin) dublikatının verildiyi tarix və qeydiyyat nömrəsi (dublikat verildikdə);<br>1.19. malın ölkə daxilində istehsal edildiyini təsdiq edən mənşə sənədinin tarixi, nömrəsi, malın adı, malın istehsalçısının adı, VÖEN-i və mənşə ölkəsi;<br>1.20. lisenziyanın (icazənin) dayandırılması və bərpa edilməsi haqqında inzibati aktın tarixi və nömrəsi;<br>1.21. lisenziyanın (icazənin) ləğvi haqqında inzibati aktın tarixi və nömrəsi |
| 2. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2.1. hüquqi şəxsin və ya fərdi sahibkarın işçilərinin sayı;<br>2.2. sahibkarlıq subyektinin işçilərinin əmək müqavilələrinin bildirişi sistemində mövcud olan iş dövrü;<br>2.3. hüquqi şəxsin və ya fərdi sahibkarın işçilərinin vəzifələri;<br>2.4. istehsalat təqvimi |
| 3. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələr üzrə | 3.1. hüquqi şəxs və ya fərdi sahibkarla bağlı girovun ödənişə yönəldilməsi barədə məhkəmə qərarının olub-olmaması;<br>3.2. hüquqi şəxs və ya fərdi sahibkarla bağlı kommersiya fəaliyyətinin dayandırılması barədə məhkəmə qərarının olub-olmaması;<br>3.3. hüquqi şəxs və ya fərdi sahibkarla bağlı əmlakın üzərinə həbs qoyulması barədə məhkəmə qərarının olub-olmaması;<br>3.4. hüquqi şəxs və ya fərdi sahibkarla bağlı müflis elan olunması barədə məhkəmə qərarının olub-olmaması; |

| | | |
|---|---|---|
| | | 3.5. hüquqi şəxs və ya fərdi sahibkarla bağlı lisenziyanın (icazənin) ləğvi barədə məhkəmə qərarının olub-olmaması;<br>3.6. hüquqi şəxs və ya fərdi sahibkarın satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanılması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məhkəmə qərarının olub-olmaması barədə məlumat |
| 4. | Azərbaycan Respublikasının Mərkəzi Bankı | 4.1. bank zəmanətini vermiş bankın adı və VÖEN-i;<br>4.2. bank zəmanəti verilmiş sahibkarlıq subyektinin adı və VÖEN-i;<br>4.3. bank zəmanətinin tarixi, nömrəsi, məbləği və qüvvədəolma müddəti;<br>4.4. banka verilmiş lisenziyanın tarixi, nömrəsi, qüvvədəolma müddəti (əgər vardırsa) |